# Artvin-Ardahan

*“Səfərnamə”*




**Həyat Şəmi**

Budəfəki səfərim Artvin-Ardahan istiqamətində idi. Gürcüstan sərhədindən Sarp adlanan (sərt qayalıqlarla əhatəli məkan deməkdir) ilçəyə, yəni qəsəbəyə, oradan Hopaya, Hopadan da Artvin şəhərinin Arxavi ilçəsinə yol aldıq. Türkiyənin şimal-qərbində yerləşən Artvin şəhərinin Arxavi ilçəsi yaşılın 7000 çalarının mövcud olduğu yerdir, deyirlər. Qeyd edim ki, bu səfər Türkiyəyə “karayolu”yla olan ilk səfərim idi. Bunaqədərki səyahətlərimi uçuşlarla etdiyimdən coğrafiyayla, doğayla, təbiətlə bu qədər yaxın və doğma olmamışdım. Yol hər nə qədər uzun olsa da, yorucu deyildi. Hələ yol yoldaşımın da tarixçi və ədəbiyyatçı olduğunu qeyd etsəm, yolun nədən yorucu olmadığı gün kimi aydın olacaq.



Avtobusumuz Batum şəhərindən etibarən Qara dəniz sahilləri boyunca hərəkət edirdi (bu yol İstanbula qədər uzanır). Bələdçi Arxaviyə çatdığımızı elan etdi. Biz avtobusdan endik. Arxavidə bizi ilk olaraq rütubətli, nəm, isti hava və Ilqaz Yeşilçimen adlı ədəbiyyat müəllimi qarşıladı (Azərbaycanda “ı” hərfiylə başlayan söz belə olmasa da,Türkiyədə hətta bu hərflə başlayan adlar mövcuddur: Ilqaz, Ilqıt və sairə). Rütubətli havanın vücuda verdiyi yapışqanlılıq hissi hər nə qədər xoş olmasa da, gəldiyim diyarı - ilçəni sevməyə başladım. Bu ilçənin adı Türkiyə türkcəsində Arhavi olsa da, yerli lazların dilində Arkabi kimi deyilməkdə və yazılmaqdadır (hətta burada “Arkabi” adlı bir mini marketə də rast gəldim). Rütubətli Arxavidə gecələdik və sabahın sübh şəfəqləri yeni bir günün başlanğıcından xəbər verirdi.

Arxavi ilçəsinin verdiyi özəl və gözəl təəssüratlar osmanlıcada ifadə olunan “Təbdili-məkanda fərahlıq vardır” fikrini bir daha təsdiqlədi. Qara dəniz (Pont) sahillərində yer alan bu ilçə bir tərəfdən meşə və yaşıllıqlarla örtülü dağlarla, digər tərəfdən isə Qara dənizin ılıq suları yalayan sahillə əhatə olunub. “Karadeniz” bölgəsi adlanan bu ərazilərdə buralara xas çay plantasiyaları dağ ətəklərində səliqəylə uzanmaqda, hər evin həyətində çay bağçalarına rast gəlinməkdədir. Bu yerlərin brendi çaydır, bir də, deyəsən, fındıq. Türkiyənin dövlət çay istehsalı zavodu olan “Çaykur” bu ilçədədir. Arxavinin mərkəzi küçələriylə yeriyərkən çay zavodlarının borularından qalxan çay qoxulu tüstülər insanın ruhuna rahatlıq gətirir. Hər dəfə bu çay ətrini hiss etdiyimdə içimdə çay içmək istəyi yaranırdı. Sadəcə “Çaykur” deyil, bir çox çay brendlərinin də burada istehsal sahələri var ki, bunlardan biri də Böyük Britaniyanın dünya miqyasında məşhur çay brendi olan “Lipton”dur. “Lipton” buradan əldə etdiyi çayları dünyanın dörd bir tərəfinə göndərməkdədir. Çay, ümumiyyətlə bütün Qaradəniz bölgəsinin dolanışıq mənbəyidir. Hətta, qaradənizlilərin parfümləri belə çaydandır.

İlçənin bağ-bağatları ya fındıq ağaclarından, ya da çay bağçalarından ibarətdir. Arxavinin yaşıllıqlarla əhatəli bir dağının tam təpəsində “Rakani” adlı çay bağçasında səhər yeməyini yedik. Cəmisi 25 lira (təxminən 7 manat) pul tutan bu səhər yeməyinə nələr daxil idi, nələr. Bircə onu deyim ki, bizim buralarda o qədər naz-nemətli bir səhər yeməyinin qiyməti aşağısı 50 manat olardı...

Axşama doğru Arxavidə günbatımının çox fərqli şəkillərdə olduğunu söylədilər və müşahidə etmək qərarına gəldim. Qara dəniz bəzən o qədər bərraq və aydın görünür ki, deyilənə görə, açıq havalarda qarşı tərəfdəki Krım sahillərini gözlə görmək mümkün olur. Bölgəyə də adını verən Qara dəniz bəzən sakit görünsə də, onun fırtınaları tarixdən məşhurdur. “Qara dənizdə gəmilərinmi batıb?” ifadəsi də bu fırtınaların xalqın dilində əks olunmuş bariz nümunəsidir. Günəşin Qara dəniz üzərindən qürub etməsini gözlərimizlə görmək üçün tarixçi dostumuz İbrahim Söyləməzlə yüksəklikdə yerləşən bir sahil restoranına getdik. Tarixdən, siyasətdən, ədəbiyyatdan söhbət edərkən Günəşin qürub vaxtı gəlib çatdı. Telefonun kamerasını açıb bir neçə dəqiqəlik yaddaşa aldım.

Növbəti gün Arxavinin tarixi və təbii gözəlliklərinin iç-içə olduğu “Çifte Köprü” (Qoşa Körpü) adlanan iki bitişik kəmər körpünü görmək üçün 100 lira taksi pulu verib Ortacalar kəndinə yol aldıq. Kənd nə kənd! Dağların qoynunda, dağ çaylarının sahilində uyuyan səpsərin, yamyaşıl bir kiçik kənd, bu kəndi məşhur edən isə “Çifte Köprü”südür. Ortacalar kəmər körpüləri Arxavinin Ortacalar kəndinə 2,5 km məsafədə Küçükköy və Arılı köylərinin yolayrıcında bir-birinə dik şəkildə perpendikulyar olaraq salınmış körpülərdir. İki körpünün ikisi də bir-birinin eynisi olmaqla bərabər və simmetrik tikilmişdir. Körpü üzərindən keçən yol düz deyil, aşırımlıdır. Memari strukturları baxımından və dar olduğundan körpülər bu gün, sadəcə piyadaların keçməsi üçün əlverişlidir. Tarixən isə bu körpülər at arabaları, minik vasitələri və insanların keçməsi üçün nəzərdə tutulmuşdu. Körpülərin yaxınlığında buranı ziyarətə gələn turistlərin rahat hərəkət edə bilməsi, həm nəqliyyat, həm də piyadaların keçməsi üçün əlverişli olan müasir körpülər inşa edilib.

“Çifte Köprü” isə tarixi abidə kimi qorunub-saxlanılmaqda, turistlərin ziyarət məkanı kimi dəyərləndirilməkdədir. Körpünün uzunluğu 280 metrdir və 2002-ci ildə tarixi özəllikləri saxlanılmaqla əsaslı təmir olunmuşdur.

Arxavinin ən qədim tarixi abidələrindən hesab olunan bu “Çifte Köprü”nün XVIII əsrdə Osmanlı dönəmində inşa edildiyi söylənilməkdədir. Bugünə qədər körpülərin tikildiyi dəqiq zamanı təsdiq edən hər hansı bir tarixi daş yazı və ya mənbə tapılmamışdır. Amma körpülər tarixi memarlıq üslubu ilə Osmanlı dönəminin bariz nümunəsidir. Körpülər Kamilat və Soğucak (Soyuqca) nehirlərinin qovşağında çaylar üzərindən salınmışdır. Bu çaylar öz başlanğıcını dağlardan aldığından və bizim Körpüləri ziyarətimiz zamanı bir saatlıq güclü yağış yağdığından çaylardan birinin suyu bulanıq, digərininki isə dupduru axmaqda idi. Bulanıq sulu çayla, durusulu çayın qovuşduğu yerdə maraqlı bir mənzərə alınmışdı. Bir neçə saat duruluqla bulanıqlığın qovuşduğu sularda - Çifte Köprü üzərində təmiz nəfəs aldıq, bölgədə “muhlama” adıyla məşhur olan, Azərbaycanda isə “quymaq” adlanan yeməkdən yedik.



Daha sonrakı gün Arxavi ilçəsinin İmam Hatib liseyində kitab təqdimatına dəvət olunduq. Liseyin girişindən çıxışına qədər Türk tarixinin dahi şəxsiyyətlərinin (Mövlana, Yunus Əmrə, Məhəmməd Füzuli, Fateh Sultan Mehmet və sairənin) şagirdlərə örnək olacaq kəlamlarının, deyimlərinin divarlara həkk olunmuş, asılmış şəkilləri ilə qarşılaşdıq. Liseyin ilk girişində isə divara “Qurani-Kərim”dən “Ələq” surəsinin “İqra”, yəni “Oxu” kəliməsi ilə başlayan ilk ayələri yazılmışdı ki, bu da diqqətimizdən qaçmadı. Bir məktəb üçün, bir təhsil ocağı üçün bundan dəyərli söz ola bilməzdi, məncə. Həmin günün axşamı isə Arxavinin sahilində tarixçilər Hayrulla Kur, İbrahim Söyləməz və digərləri ilə türk qəhvəsi içdik.

Ertəsi gün Artvinə bağlı Şavşat ilçəsinə doğru yol aldıq. Yollar dağlardan, dərələrdən, çay sahillərindən, ormanlardan keçirdi. 3 saatlıq yol boyu gördüyüm təbiət gözəlliklərini sözlə ifadə etməkdə çətinlik çəkirəm. Artvindən Ardahana doğru yolda Türkiyənin ən iti axan çayı olan Çoruhla tanış oldum. Çoruh çayı Bayburtdan başlayıb Batumda Qara dənizə qarışır. Çoruh çayı üzərində SES-lər (Su Elektrik Stansiyaları) gördüm.

Şavşata çatanda bizi Ardahan Universitetinin tar müəllimi Yusuf Altun və rəfiqəsi Halimə Kızıltoprak qarşıladılar.

Artvin, Arxavi, Şavşat, Ardahan tarixən Qıpçaq Atabəy dövlətinin tərkibində olub. Bu səbəbdən yaşıllıqların qoynundakı Şavşatın yerli əhalisinin əksəriyyəti Axısqa türkləridir. Artvin, Ardahan və Ərzurum adları qədim Roma dövlətinin əyalət sistemində ortaya çıxan adlardır. “Art + vin”, “Art+ahan”, “Art+ze” (Artze des Romano - Artzerum, Arzırum, daha sonra isə Ərzurum şəklini almışdır) şəklindən günümüzə çatan bu adlarda ortaq nöqtə olaraq “Art” sözü - yer, yurd deməkdir. Artze, Artvin - Aşağı yurd, Yuxarı yurd deməkdir.

Hər tərəfi şam ağacları ilə əhatəli olan Şavşatda bizi qarşılayan dostlarımızla səhər yeməyi yemək üçün bir yaylağa doğru hərəkət etdik. Türkiyədə Artvin şəhərinə “Göyə qonşu torpaqlar” deyirlər ki, bunun həqiqət olduğunu o yaylaq başında hiss etdim. Hər yanı çəmənlərlə əhatəli yaylağın başı buludlara dəyirdi. Şuşanın başıdumanlı dağları yadıma düşdü...

Bu yamaclarda ciyərlərimizi oksigenlə doldurduqdan sonra Şavşat Qaragölə doğru yola düşdük. Qaragöl Artvinin Şavşat ilçəsinin 25 km şimalında yerləşən və tarixən torpaq sürüşməsindən sonra əmələ gələn bir göldür. Göl sahəsi Qaragöl Sahara Milli Parkında yerləşir.

Qaragöl meşəliyin içində qara mirvari dənəsi kimi dururdu. Qaragöldə gəzərkən bir qarabağlı kimi Vətən torpağına həsr etdiyim bu şeir parçası yadıma gəldi:

*Nələr varmış bu fələyin oyununda,*
*Qara qızıl xəzinədir qoynunda,*
*Meşələri boyunbağı boynunda,*
*Dağılmayan danəsinə qurbanam.*

Qaragöldən ayrılıb Ardahana doğru yol aldıq. Ardahana girərkən, sadəcə Artvindən deyil, Qaradəniz bölgəsindən də çıxmış olduq. Artıq çevrəmizi əhatə edən qara şam ağacları, yaşıl meşəli dağlar əvəzinə bizi yaylalı və hələ də başı qarlı dağlar qarşılamağa başladı. Dağların yamaclarında qoyun sürüləri, yaylaq evləri, alaçıqlar diqqətimi çəkirdi. Beləcə, şimali-şərq Anadolu bölgəsinə girmiş olduq ki, buralara hər nə qədər fərqli adlar verilsə də, coğrafi baxımdan elə Qafqazın özü idi. Ardahan dağlarından Ərzuruma sarı boylandım və növbəti səfərimi Ərzurum dağlarına edəcəyimi düşündüm.

Gecəni Halimə Kızıltoprağın evində qonaq oldum. Hər cür izzəti-ikramda bulundu. Gözəlliyi, gülərüzü və evdarlığı mənə Azərbaycan türk qızlarını xatırlatdı.

Sabahısı günü Çıldır ilçə mərkəzində yerləşən Aşıq Şenliyin heykəlini ziyarət etdik. Aşıq Şenlik Qarapapaq Türklərindən böyük bir ozandır. Qars, Axısqa, Borçalı, Tiflis, Gümrü və İrəvanı gəzərək dövrünün ozanları ilə deyişmələr söyləmişdir. 1913-cü ildə İrəvan səfəri zamanı rəqib saz şairlərinin qısqanclığıyla yeməyinə zəhər qatılmış və məmləkəti Çıldıra çatmamış yolda Arpaçay ilçəsində vəfat etmişdir.

Çıldır ilçə mərkəzindən ayrıldıqdan bir az sonra Çıldır gölünə qalxdıq. Çıldır gölü qədim zamanlarda vulkandan axan lava axını nəticəsində əmələ gəlmiş bir göldür. Qışda bu gölün üzəri buz qatıyla örtülür və çıldırlılar həmin vaxt burada “Çıldır göl festivalı” təşkil edərlər. Atlı xizəkləri ilə buzla örtülü göl üzərində şoular göstərərlər. Qışda Çıldır gölündə balıq tutmaq istəyən balıqçılar gölün müəyyən bir nöqtəsini gedib əllərindəki kiçik külünglərlə buzu deşər və balıq tutmağa başlarlar. Biz də Çıldır gölünün sahilində yerləşən gözəl bir restoranda əyləşib Çıldır gölündən tutulub qızardılmış buraya məxsus Sarı sazan balığı yedik.

Gecə yenidən Ardahan şəhərinə geri döndük. Və sabah çantamızda toplanmış gözəl təəssüratlarla can Azərbaycanımıza doğru yol aldıq.

Gedib, görüb yazması məndən, bu yerləri bir də öz gözlərinizlə görməsi sizdən. Unutmayın, “təbdili-məkanda fərahlıq vardır”.